# İLAHİYYAT

**UOT 2-5**

# ƏFV HAQQINDA PEYĞƏMBƏR HƏDİSLƏRİ

**M.H.CƏHDİ**
***AMEA Əlyazmalar İnstitutu***
***abbasova@ada.edu.az***

*İslam dininin müqəddəs Kitabı Qurani-Kərimdən sonra islam hüquq sisteminin ikinci qaynağı olan Peyğəmbər hədislərində də islam hüququnun ayrı-ayrı sahələri ilə bağlı çoxsaylı fikirlər verilmişdir. Bu fikirlərdən biri də şərəf və əzəmət baxımından islamda böyük və geniş yer tutan əfv məsələsinin həyata keçirilməsinin qanunauyğunluqlarını işıqlandırır. Məqalədə Məhəmməd peyğəmbərin hədislərindən verilmiş ayrı-ayrı nümunələr əsasında əfv və güzəşt məsələləri gözəl əxlaqi keyfiyyətlər kimi araşdırılır və onların əsas yolları göstərilir.*

**Açar sözlər:** əfv, hədis, günah, peyğəmbər, güzəşt, əxlaq

İslam dinində əxlaqın böyük bir önəmi, dəyəri vardır. İslamın məqsədi insanları gözəl əxlaq sahibi kimi kamilləşdirməkdir. İslam gözəl əxlaq deməkdir. Bir müsəlmanın dəyəri onun əxlaqı ilə ölçülür. Dinimiz ibadətləri əmr etdiyi kimi, əxlaqi vəzifələrin yerinə yetirilməsini də əmr etmişdir. İslamda ibadətlərin bir qayəsi də insanları pis işlərdən çəkindirmək və onları yaxşı əxlaqi fərdlər kimi yetişdirməkdir.

İslam əxlaqının, islam hüquq sisteminin ikinci qaynağı Peyğəmbərin (s) hədisləridir (sünnə). Sünnə Peyğəmbərdən (s) nəql olunan deyim, davranış və hərəkətlərdir. Bunlar Qurani-Kərimin buyurduqları ilə üst-üstə düşür.

Böyük Allahın Adəm övladını dəvət etdiyi bütün əxlaqi sifətlərin hər birisi bir hikmət və məsləhət üzündəndir. Həmin əxlaq bir çox yaxşılığa, habelə mənafeyə səbəb olur və hər iki dünyada səadət və xoşbəxtlik gətirir.

Əfv də, onlardan biri olaraq, dəyərli xüsusiyyət, üstün fəzilət və böyük üstünlük hesab olunur. Əfv mehriban, bağışlayan, pak və böyük Allahın əxlaqlarından biridir. Əfv şərəf və əzəmət baxımından islamda böyük və geniş yer tutur. Quranda olduğu kimi, Peyğəmbər (s) hədislərində də əfv məsələsi öz geniş əksini tapmışdır. Peyğəmbərin (s) hədislərindən birində əfv ilə bağlı belə deyilir:

اِنَّ اَللهَ عَفُوٌ يُحِبُ اَلعفوَ

“Allah olduqca əfv edəndir və əfvi sevər” (1, 7005).

Belə rəvayət olubdur ki, bir ərəb Peyğəmbərdən (s) soruşub: - Qiyamət günü xalqın əməllərinin haqq-hesabını kim çəkəcək?

O isə cavabında: “Əzəmətli və böyük Allah” buyurmuşdur.

Ərəb: “And olsun Kəbənin Allahına ki, xilas olduq”.

Peyğəmbər (s) buyurmuşdur: “Necə yəni ey ərəb?”.

Ərəb cavab verir: “Çünki mehriban və kəramətli Allah mümkün olan qədər əfv edər” (2, 7).

Bu hədisdən aydın olur ki, Allah öz bəndələrinə qarşı olduqca mehribandır. Tövbə edib düz yola gəldikləri zaman onların günahlarını bağışlayar. Nə zaman onlar öz günahlarından həm dil, həm də qəlb ilə tövbə edib peşmanlıq duysalar, Allahdan əfv tələb edib onları bağışlamasını istəsələr, Allah onların hamısını bağışlayar və günahlarını örtər. Allah öz bəndələrinin belə xislət və xüsusiyyətini sevir. Bizim üzərimizə onun sevdiklərini sevmək və onun istədiklərinə əməl etmək məsuliyyəti düşür.

Ayişədən (r) belə rəvayət edilir ki, o, Peyğəmbərdən (s): “Ey Allahın Rəsulu, fikrincə, Qədr gecəsi Allahdan nə istəyim? – deyə soruşduqda o, belə buyurmuşdur: “De ki, ey Allah, sən əfv edənsən və əfv etməyi sevirsən, məni əfv et!” (3, II, 1265).

Əgər peyğəmbər öz zövcəsinin günahları olmasını qəbul edir və onun bağışlanmasını istəyirsə, deməli yer üzündə günahsız insan yoxdur. Odur ki, hər birimiz çoxlu dualar etməli, Allah-Təaladan günahlarımızın bağışlanmasını diləməliyik.

Besətdən sonra Allah Rəsulu öz qövmündən çəkdiyini çəkdi və gördüyünü gördü. Lakin böyük Allah onu düşmənlərinə qalib edincə onların bütün pisliklərini açıq üzlə əfv edib, onlara yaxşılıq etdi və intiqam almadan sərbəst buraxdı.

Peyğəmbərin (s) Məkkəni fəth etdiyi ərəfədə Əbu Sufyan Peyğəmbərin hüzuruna gəlib dedi: Ya Rəsulullah, Səd ibni İbadənin nə dediyini eşidirsən? O belə oxuyur:

اَليَومَ، يَوْمُ المَلحَمَهِ      اَليَومَ تُسبِي الحُرمَهِ

“Bu gün savaş günü və qan tökmə günüdür. Bu gün ailələr əsir düşəcəklər”.

Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Ya Əli, Sədi tap və bayrağı ondan al və sən İslam bayrağını Məkkəyə daxil edən ilk şəxs ol və həmin əməli yumşaq keçinməklə yerinə yetir. Əli (ə) bayrağı aldı və Mustafanın (s) dediyi kimi daxil oldu. Allahın Rəsulu (s) Məkkəyə daxil olduğu zaman, müsəlmanların qılınc zərbələrindən xilas ola bilməyəcəklərini təsəvvür edən Qureyş başçıları Kəbə evinin içərisinə sığındılar. Peyğəmbər gəldi və qapının yanında durub buyurdu:

“Yeganə Allahdan başqa məbud yoxdur, öz vədini yerinə yetirdi, bəndəsinə dəstək oldu və təkbaşına bütün qrupları məğlub etdi”.

Daha sonra buyurdu: “Bunu bilin ki, siz öz peyğəmbəriniz üçün yaxşı

qonşu olmadınız: Ona yalançı dediniz, onu didərgin edib, vətəndən qovdunuz və ona əziyyət etdiniz. Bundan əlavə, etdiyinizə qənaət etməyib, bir də mənim öz vətənimdə mənimlə savaşmağa gəldiniz. İndi gediniz, sizi azad edirəm”. Qureyş kafirləri qəbirdən qalxmış ölülər kimi Kəbə evindən çıxıb, İslama sığındılar. Halbuki, Allah öz gücü və qüdrəti ilə onu onlara qalib gətirmişdi. Bundan sonra Məkkə əhli azad olunmuşlar kimi tanındılar (4, IV, 208).

Yenə də rəvayət olmuşdur ki, Rəsuli-Əkrəm öz əmisi Abbasa buyurdu: Əbu Sufyanı gədik başına apar və orada əyləşdir ki, xalqın qaynaşmasını və İslam əskərlərinin əzəmətini görsün. Əbu Sufyan həmin mənzərəni görüncə Abbasa dedi: Qardaşoğlunun əcəb böyük padişahlığı vardır! Abbas dedi: Ey Əbu Sufyan, bu padişahlıq deyil, peyğəmbərlikdir!

O zaman İslam peyğəmbəri Abbasa əmr etdi ki, irəliyə, Məkkəyə get və kafirlərə möhlət ver (5, XXI, 119).

Allahın Rəsulu müsəlmanlarla ilqar bağlamışdı ki, Məkkədə ancaq onlarla savaşa qalxan bir neçə şəxsdən başqa kimsəni öldürməsinlər (6,68). İmam Sadiqdən (ə) rəvayət olmuşdur ki, Allahın Rəsulu Məkkənin fəthi günü Məscidül-hərama daxil olduğu zaman Kəbənin qapısını açdı və oradakı bütlərin məhv edilməsinə dair əmr verdi. Daha sonra iki əli ilə qapının yanlarını tutub buyurdu: “Yeganə Allahdan başqa məbud yoxdur. Öz vədini gerçəyə qovuşdurdu və öz bəndəsini qalib etdi. Tək başına batil qrupların hamısını məğlub elədi”. Daha sonra yenə də buyurdu: “Ey xalq, mənimlə bağlı nə deyirsiniz və nə təsəvvür edirsiniz?”

Dedilər: “Səninlə bağlı xeyir fikirləşirik və yaxşı sözlər deyirik, sən bizim böyük qardaşımız və böyük qardaşımızın oğlusan ki, bizə qalib gəldiniz!”

Peyğəmbər buyurdu: “İndi mən sizə qardaşım Yusif dediyi sözü deyirəm”.

لَاتَثريبَ عَلَيكُمُ اليَومَ يَغفِرُ اللهُ لَكُم وَ هُوَ اَرحَمُ الرّاحِمينَ

“Bu gün sizə (etdiklərinizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! (Mən Allahdan sizin bağışlanmanızı diləyirəm. O da sizi bağışlayar!)” (7, I, 227).

Qazi Əyaz “Şəfa” kitabında yazır: “Belə rəvayət edirlər ki, Uhud döyüşündə Peyğəmbər (s) dörd qabaq dişinin sınması və alnının yaralanması Onun yaxınlarına çox ağır təsir etdi. Ondan xahiş etdilər ki, düşmənlərə qarğış eləsin. Lakin Peyğəmbər (s) buyurdu: “Mən xalqa qarğış etmək üçün seçilməmişəm. Bəlkə xeyir və rəhmət duası üçün bu məqama təyin olmuşam. Allahım, mənim qövmümə rəhbərlik edib, yol göstər ki, onlar heç bir şey bilmirlər” (8, 150).

Bu alicənablıq fəzilət, ehsan və gözəl əxlaq, habelə nəfs böyüklüyü və dözümün ən ali dərəcəsidir. O, xalqın verdiyi əziyyət və əzabına qarşı sakit qalmış və onları əfv etmiş, onlara qarşı mehribanlıq və mərhəmət göstərmiş, onlar üçün dua etmiş və onları şəfaət edib demişdir: “Allahım, onları bağışla, doğru yola yönəlt!” Daha sonra şəfaətinin səbəbini bildirmək üçün xalqı özündən hesab edib “qövmüm” adlandırmışdır. Onların cəhalət və bilməməzlikləri üzündən Allahdan üzür istəmişdir.

Peyğəmbər (s) bir çox qrupların qan tökməni halal qəbul etmələrinə və adam öldürmə hokmü vermələrinə baxmayaraq, onları əfv etmişdir. Həmin şəxslərdən biri Əkrəmə ibn Əbi Cəhil və digəri Sufyan ibni Üməyya ibn Xələf idi ki, İslam Peyğəmbərinin (s) sərt və qatı düşmənləri olmuşdular. Üçüncü bağışlanan şəxs Həbbar ibn Əsvəd idi ki, Allah Rəsulunun qızı Zeynəbi qorxutmaması xanım həmin qorxu nəticəsində öz uşağını salmışdır. Həzrət buna görə onun qanını hədər və halal etmişdir. Lakin belə rəvayət olub ki, o öz xoşa gəlməz əməlinə görə Allah Rəsulunun hüzuruna üzür istəməyə gəlmiş və:

"Ey Allahın Rəsulu, biz müşrik idik və böyük Allah sənin vasitənlə bizi doğru yola rəhbərlik etdi və həlak olmaqdan qurtardı. Mənim tərəfimdən həm də nadanlıq və cəhalət üzündən sənə ziyan gəldi. Mən öz cəhalət və günahlarımı etiraf edir, səndən üzr istəyirəm, güzəşt et, əfv buyur, bağışla! – deyə üzr istəmişdir. Peyğəmbər (s) isə cavabında buyurmuşdur: "Səni əfv etdim. Allah sənə yaxşılıq edib İslama gətirdi və İslam keçmiş səhv, habelə yanlışlıqları örtər".

İslam peyğəmbəri Hind və Əbu Sufyanı da bağışlamışdır. Halbuki, onların o Həzrətə verdikləri əzab və çəkdirdikləri işkəncəni dil belə deyə bilməz. Maraqlı burasıdır ki, Onu zəhərli qoyun əti ilə zəhərləmiş Yəhudi qadını belə, günahını boynuna alandan sonra əfv edib bağışladı.

Bu barədə Həzrət Əbu Cəfər İmam Baqir (ə) buyurur: "Zəhərli qoyun ətini Peyğəmbərə (s) yedirdən Yəhudi qadını O həzrətin hüzuruna gətirdilər. Həzrət o qadından soruşdu: "Nə üçün belə bir iş gördün?"

Cavab verdi ki, öz-özümə dedim: "Əgər o Allahın peyğəmbəri olsa, bu zəhər ona təsir etməz və əgər zülm edici şah olsa xalqı onun şərrindən qurtarmış olaram." Bunun ardınca da Peyğəmbər (s) onu əfv etdi (9, 9).

Mərhum Məclisi "Biharül-ənvar"da həmin rəvayəti nəql edəndən sonra demişdir: "Peyğəmbərin (s) bu əməli onu göstərir ki, hətta kafirin də səhvini əfv etmək gözəldir. Baxmayaraq ki, o, öldürmək qərarı vermış və həmin qərar üçün yanlış, habelə məntiqsiz yol götürmuşdür. Bir çox rəvayətlərdə o zəhərli qoyun ətinin təsiri möcüzə nəticəsində qısa müddətdə görünməyib, bəzi rəvayətlərdə isə uzun illər boyunca o Həzrətin vücudunda qaldığı, nəhayətdə, vəfatına səbəb olduğu, onu şəhadətə çatdırdığı qeyd edilir. Bununla da Allah-Təala onda şəhidlik üstünlüyü ilə peyğəmbərlik kəramətini cəmləşdirdi və o Həzrətin dərəcəsini daha da yüksəltdi (5, 71, 402).

İmam Rzadan (ə) rəvayət olubdur ki, Allahın Rəsulu (s) onu cadulayan Yəhudi şəxsdən soruşmuşdur: "Nə səbəbə, sən belə bir işə meyil göstərdin?

O cavab vermişdir: "Bilirdim ki, sən peyğəmbər olsan, sehr və cadu sənə təsir etməz". O Həzrət onu əfv edib bağışladı. Beləliklə, onun günahından vaz keçdi (10, 229).

Nəql edirlər ki, Peyğəmbər (s) döyüş meydanında idi. Kafirlər müsəlmanları qəflət və süstlük halında gördülər. Bir kişi həmin fürsətdən istifadə edərək qılıncını alıb Allah Rəsulunun başı üzərində durdu və dedi: "İndi səni mənim əlimdən kim qurtara bilər?"

Peyğəmbər (s) buyurdu: "Allah!" Həmin anda qılınc onun əlindən düş-

dü. Həzrət qılıncı götürüb eyni sualı ona verdi. Kafir cavab verməyə söz tapmadı. Peyğəmbər (s) buyurdu: De ki, Allahdan başqa məbudum olmadığına şəhadət verirəm. Kafir: “Nə səninlə vuruşaram, nə səndən himayə istəyərəm, nə də sənə qarşı döyüşən qövmlə birlikdə vuruşaram” dedi. Peyğəmbər (s) onu sərbəst buraxdı. Öz qövmünün yanına qayıdan müşrik onlara ən yaxşı və ən gözəl xalqın yanından gəldiyini bildirdi. Buradan da məlum olur ki, Həzrət Mustafanın əfvi yaxınları, düşmənləri, xidmətçiləri, müsəlmanlar, yəhudilər, nəsranilər və müşriklərlə etdiyi davranışında da özünü əks etdirir. Peyğəmbər (s) Allah-Təalanın dünya xalqlarına göndərdiyi yeganə rəhmət hədiyyəsidir. Allah-Təala öz peyğəmbəri barədə buyurur:

وَ مَا اَرسَلنَاكَ اِلاّ رَحمَةً لِلعالَمِين

“Səni də (Ya Məhəmməd) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik” (11, XXI, 107).

Bu ayədən çıxış edərək demək olar ki, dünya xalqları üçün iki cəhətdən rəhmət hesab olunur:

1. Allah tərəfindən elə bir din gətirib ki, xalq ona əməl etməklə öz dünya və axirət səadətini əldə etdi.

2. Onun qiyamı və xalqları haqqa doğru dəvət etməsi nəticəsində cəmiyyət arasında yaxşılıq yayıldı (108, XIV, 331).

O bəd əxlaq və çətin xasiyyətlilikdən uzaq idi. Bunun tam tərsinə olaraq deməliyik ki, O ədəbsizləri əfv edir, onlara yaxşılıq göstərirdi, onların xoşa gəlməz əməllərinə göz yumurdu. O bununla da qane olmur, möminlərin günahlarının da əfv edilməsini Allah-Təaladan təvəqqe edirdi. Allah-Təala onun istəklərini qəbul edirdi. O Həzrət xalqın arasında elə bir rəhmət idi ki, Allahın əzabını onların arasından qaldırıb uzaqlaşdırırdı. Quranda bu barədə buyurulur:

...وَ مَا كَانَ اللهُ لِيُعَذِّبَهُم وَ اَنتَ فِيهِم

“Halbuki sən onların arasında ola-ola Allah (Sənə hörmət əlaməti olaraq) onlara əzab verən deyildir” (11, VIII, 33).

Bu ayədən belə bir məna çıxır ki, Allah-Təala başqa ümmətlər arasında da təzahür edən göy əzablarını hz.Məhəmmədin (s) ümmətdən uzaq edirdi. Çünki, Allah-Təalanın özünün seçərək göndərdiyi Peyğəmbər (s) həmin xalqın içərisində idi. Xalq Allahdan əfv, mərhəmət, bağışlanmaq və güzəşt dilədiyi müddətdə məyusluq onlardan uzaq olurdu və onlar heç bir müsibətə məruz qalmayırdılar (12,IX,71).

Mühüm olanı odur ki, Allah Rəsulunun (s) təbliğatı olmasa idi xalq əfv və bağışlanmaq diləməzdi. Çünki necə əfv tələb etməyi və necə tövbə edib doğru yola getməyi məhz o Həzrət onlara öyrətdi və öz müqəddəs, habelə şərəfli nübüvvəti boyu özü onları əfv edib bağışladığı kimi, onlar üçün Allahdan da əfv, güzəşt və bəxşiş diləyərdi. Allah-Təala öz bəndələrinə Allahın geniş rəhməti hesab olunan Peyğəmbərə (s) doğru gedib, ona sığınmağı əmr etdi:

...وَ لَو اَنَّهُم اِذا ظَلَمُوا اَنفُسَهُم جَاؤوكَ فَاستَغفَرُوا اللهَ وَاستَغفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللهَ تَوَّاباً رَحيماً.

“… Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanı-

na gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər (s) də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələrini qəbul edənə mərhəmətli olduğunu bilərdilər” (11, IV, 64).

Öz həyatlarında səhv, yanlış və günaha batan bir çox şəxslər Allahın Rəsuluna (s) müraciət etmişlər, O isə Allahdan onlar üçün əfv tələb etmişdir. Allah-Təala həmin istəyin əsasında onları əfv etmişdir. Bir çox azğın və günahkar ona müraciət etdiyi halda belə, o Həzrət onları əfv, mehribanlıq və rəhmətlə qarşıladıqdan sonra Allah yolu, yəni haqq yoluna yönəltmişdir. Ən böyük yolgöstərici olan islam Peyğəmbəri (s) vəhşiliyə bulaşmış bir xalqla çiyin-çiyinə yaşayarkən onlara mehribanlıq, yoldaşlıq, güzəşt və xoş davranış göstərdi. Cabir nəql edir ki, Peyğəmbər (s) Hüneyn savaşı günü Bilalın ətəyindəki gümüşlərdən ovuc-ovuc götürüb xalqa paylayırdı. Bir kişi dedi: “Ey Allahın peyğəmbəri, ədalətli davran!”.

Həzrət buyurdu: “Vay olsun sənə! Əgər mən ədalətli davranmıram, bəs kim ədalətli davranır? Əgər mən ədalətli olmasaydım, sən indi ümidsiz və ziyankar idin”.

Ömər yerindən qalxıb dedi: “Ey Allahın Rəsulu (s), izin verin onun boynunu vurum. Çünki o münafiqdir?!”

Həzrət buyurdu: “Allaha pənah, Allaha sığınıram ki, bir gün xalq deməsin ki, mən öz yaxınlarımı öldürürəm (13,III,390).

Bir gün Peyğəmbərin (s) yanına bir ərəb gəlir və ondan sədəqə tələb edir. Həzrət ona bir pay verib buyurur: “Mən sənə yaxşılıqmı etdim?”.

Ərəb deyir: “Yox, heç bir yaxşılıq etmədin!”.

Müsəlmanlar qəzəblənib ona hücum etdilər. Peyğəmbər (s) onlara işarə edir ki, əl saxlayın! Peyğəmbər evinə getdikdən sonar, həmin ərəbin dalınca adam göndərib onu çağırtdırır. Ərəb gəldikdən sonra Peyğəmbər (s) ona yenə nə isə verib soruşur: “Mən sənə yaxşılıqmı etdim?”

Ərəb deyir: “Bəli, Allah sənə, ailənə və yaxınlarına xeyir mükafatı versin!”

Peyğəmbər (s) buyurur: “Sən mənim yaxınlarımın yanında bir söz dedin ki, onlara təsir edib, qəlblərini narahat etdi. Məhəbbət göstərib mənə dediyini onların da yanında desən, narahatlıqları aradan qalxar. Sabahısı gün, ya da həmən gecə ərəb Peyğəmbərin (s) yaxınları ilə birlikdə olduğu yerə gəldi. Həzrət buyurdu: “Bildiyiniz kimi bu kişi mənə bəzi sözlər dedi. Lakin mən onun payını artırdım, belə fikir edirəm ki, bizdən razı olmuşdur”.

Ərəb cavab verdi: “Bəli, Allah sənə ailən və yaxınlarından xeyir mükafatı versin!”.

Göründüyü kimi, Peyğəmbər (s) azla qənaətlənməyən bəndəni günahlandırmayır. Əksinə, sədəqənin miqdarını ərəbi razı salana qədər artırır. Bu da Peyğəmbərimizin (s) əfvedici və mehriban olmağından irəli gəlir. Digər bir hədisdə buyurulur: İns ibni Malik söyləmişdir ki, bir ərəb kişi Peyğəmbərin əbasını çiynindən elə şiddətlə çəkdi ki, mən o Həzrətin boynuna baxdığımda onun təsirini aydın şəkildə gördüm. Daha sonra ərəb dedi:

“Ey Məhəmməd (s), əmr ver ki, sənin yanında olan sərvət və maldan

mənə də versinlər!”. Həzrət kişiyə baxıb güldü və əmr etdi ki, o maldan ona versinlər (14, 17).

Peyğəmbər (s) ailə, xidmətçilər və yaxınları ilə olduqca səmimi və mehriban olmuşdur. Onların günah, səhv və yanlışlıqlarına göz yumar və onun haqqında işlətdikləri hər cür qüsur, yaxud səhvi güzəşt edər, günahkarı əfv edərdi və hər vaxt bir adama qəzəblənsə idi onu yumşaq işarə ilə cəzalandırardı.

Allah Rəsulunun sifətləri barədə demişlər: Hər kəsdən gec qəzəblənər, hər kəsdən tez şad olardı. Xalq üçün hamıdan mehriban olar, onların xeyrini hər kəsdən çox istərdi... Şad və sevincək olduğu zaman üzünün parlaqlığı hamıdan gözəl olardı. Öyüd-nəsihət verdiyi vaxt doğru-düzgün öyüd verərdi. Yalnız Allah yolunda acıqlı, yaxud qəzəbli olardı. Onun qəzəb, habelə acığından heç bir ziyan gəlməzdi...

Onun könlü nazik, yumşaq və kövrəkdi. Bütün müsəlmanlara mərhəmət göstərib rəhm edərdi. Kimsəyə onu narahat edən bir söz deməzdi və kimsədən intiqam almazdı. Əksinə, əfv edib güzəştə gedərdi (15, 25).

Heç bir zaman özünün qələbə və üstün gəlməsi üçün zülüm və günah yolunu tutmazdı və bu barədə ilahi qayda-qanunların pozulmasına razi olmazdı. Bütün hallarda Allaha xatir və onun razılığı üçün qəzəblənib əsəbləşərdi...:

Beləliklə, məlum olur ki, əfv və güzəşt islam Peyğəmbərinin (s) digər əxlaqları sırasında aydın və açıq bir nümunədir, onda cəzaların və cəzalandırılmaların tərk olunması ümidi vardır. Bu xüsusiyyət və özəllik yalnız onun ailə və yaxınlarına qarşı olan münasibətində deyil, düşmənlər, əziyyət edənlər və hətta onun canına qıymaq istəyənlər üçün də belə idi.

## ƏDƏBİYYAT


1. محمد صادق تويسركاني، مستدرك الوسايل، قم، نشر ميرزا محمود خوانساري، 1319 قمري، ٧٢١ص.
2. ابي الحسين ورام بن ابي فراس المالكي الاشتري، تنبيه الخواطر ونزهه النواظر، تهران، دارالكتب، الاسلاميه، 1368 شمسي، ٥٧٠ص.
3. محمدبن يزيد ابن ماجه، سنن ابن ماجه، ج ٢، بيروت، دارالجبل، 1421 قمري، ٦٦٠ص.
4. عبد الحميد بن هبه الله ابن ابي الحديد، شرح نهج البلاغه، ج ٤، قم، 1359 قمري، ٧٥٧ص.
5. الشيخ محمد باقر المجلسى – بجار الانوار لدرر اخبار الانمه الاطهار– تهران – اسلاميه. ج ٨،٢٠، ٢١،٢٢،٧٤،٧١،٧٨،٧٧،٧٥، ٧٥٧ص.
6. ابي جعفرمحمد بن علي بن الحسين بن بابويه القمي، الخصال، قم، جامعه مدرسين، 1362 شمسي، ٦١٠ص.
7. محمد بن علي شهر آشوب سروي مازندراني، مناقب آل ابي طالب، ج ١،بيروت، ٧٠٠ص.
8. عبدالحسين دستغيب شيرازي، گناهان كبيره، ج ١، قم، بينا، 1362 شمسي، ٤٧٥ص.
9. ابي علي الفضل بن الحسن الطبرسي - اعلام الوري باعلام الهدي، ج ٤،٢،٥، تهران، اسلاميه، 1390 قمري، ٦٧٠ص.
10. علي رضا كهنسال، ترجمه نهج الحق وكشف الصدق، مشهد، نشر عاشورا، 1379 شمسي، ٧٠٠ص.
11. Qurani-Kərim. (Z.M.Bünyadov və V.M.Məmmədəliyevin tərcüməsi. Bakı: Qismət, 2006,XLIV+478+LXVs.
12. سيد محمد باقر موسوي همداني، ترجمه تفسير الميزان، ج ١،٤،٨٧،٥،،٩،١٤،١٧،١٥، ١٨، قم، دفتر انتشارات

اسلامي، جامعه مدرسين حوزه علميه قم، 1374 شمسي، ٥٢٠ص.

13. Mustafa İslamoğlu. Yürek fethi. IIIc. İstanbul: Denge yayınları. 1998, 405s.
14. سيد ابراهيم مير باقري، ترجمه مكارم الاخلاق، ج ٨، تهران، نشر فراهاني،1365 شمسي، ٤٧٠ص.
15. محمدحسين طباطبائي، المنتقي، تهران، منظمه الاعلام اسلامي، 1367 شمسي، ٥٩٠ص.

## ХАДИСЫ ПРОРОКА О ПРОЩЕНИИ

**М.Г.ДЖАХДИ**

### РЕЗЮМЕ

С точки зрения чести и величия прощение занимает обширное место в исламе. Вопрос прощения нашел свое отражение как в Коране, так и в хадисах Пророка (д.б.А.п.). Прощение занимает одно из важных мест среди прочих исламских нравов. Пророк (д.б.А.п.) своими хадисами прощал не только членов своей семьи и близких, но в то же время своих врагов, мучителей и покушавшихся на его жизнь. В данной статье широко комментируются хадисы Пророка, связанные с прощением.

**Ключевые слова:** прощение, хадис, грех, Пророк, уступка, нравственность

## PROPHET`S (S) HADITHES ABOUT FORGIVENESS

**M.H.JAHDI**

### SUMMARY

Forgiveness, from the point of view of honour and majesty, takes an extensive place in Islam. Forgiveness issues are reflected not only in Koran but also in Prophet’s (s) hadithes. Forgiveness takes one of the most important places among other Islamic morals. Prophet (s) forgave with his hadithes not only members of his family and relatives, but also his enemies, people who troubled and made an attempt on his life. In the given article, Prophet’s (s) hadithes about forgiveness are widely commented.

**Key words:** forgiveness, hadith, sin, Prophet, concession, morality